Məmmədova Şəlalə Arif qızı19

# NOMİNASİYA VƏ MƏTNİN FORMALAŞMASI

Keçən əsrin 60-70-ci illərindən başlayaraq dilin sintaktik quruluşunun və onun nominativ aspektinin öyrənilməsi müxtəlif aspektlərdən tədqiqatçıların diqqətini cəlb edir. İlk olaraq dilin nominativ aspekti dedikdə nə başa düşülür? Məsələyə aydınlıq gətirmək üçün bu sahəyə dair söylənən fikirlərə nəzər salaq.

Sözün nominasiyasında və onun ifadə etdiyi məna baxımından sanki yeni mərhələ başlayır. Dil nominasiyasına yeni aspektdən yanaşılır. Sözlər ayrı-ayrı əşyaları yox, kommunikativ vahid kimi real nitq situasiyasının göstəricisi kimi nəzərdən keçirilir. Danışığın əsas məqsədini danışanın öz təcrübəsi əsasında ona məlum olan biliklərə əsaslanaraq mövcud reallıq haqqında informasiyanı ötürmək təşkil edir. Danışıq hər şeydən əvvəl dillə yeni reallığın qarşılıqlı əlaqəsi deməkdir. Bu prosesdə ilk nominativ vahid olan sözün oynadığı rol ön plana çəkilir [11, s.18]. Beləliklə, sözün geniş mənasında nominasiya sintaksisin bir sahəsi kimi müəyyən bir nitq situasiyasının dildə əks olunması yollarını öyrənir. Məsələyə bu baxımdan yanaşdıqda cümlə semantik, denotativ və koqnitiv aspektləri özündə birləşdirir. Danışanın obyektiv reallıq haqqında biliyi dil vasitəsilə həyata keçirilir. V.A.Zveqintsev qeyd edir ki, bilik yalnız öz ifadəsini dildə tapdıqda bilik hesab edilir. Müasir mərhələdə dilçiliyin əsas məqsədini insanın gündəlik fəaliyyətini əks etdirən dil vahidlərinin hansı qanuauyğunluqlar əsasında formalaşmasını müəyyənləşdirməkdir [7, s.93].

Danışan və dinləyən arasında ünsiyyətin formalaşması üçün bir-birindən əsaslı surətdə fərqlənən iki ictimai şüur mövcuddur: idrak-dil və yaxud koqnitiv və linqvistik. Dil şüuru dilin müxtəlif vahidləri vasitəsilə, koqnitiv şüur isə idrak fəaliyyəti nəticəsində formalaşır. Bunlar sanki bir-birinə qarşı qoyulur və eyni zamanda biri digərinin formalaşmasında iştirak edir. Obyektiv reallıq haqqında biliklər, həmçinin danışan və dinləyənin niyyətləri müxtəlif formada dil vasitəsilə həyata keçirilir İ.Y.Qalperinin qeyd etdiyi kimi koqnitiv və linqvistik biliklər müxtəlif sistemləri özündə birləşdirir: birinci halda əşyalar arasında mövcud olan əlaqələr, ikinci halda isə insanlar arasında mövcud olan əlaqələr [6, s.98]. Qeyd edilən bu iki biliklər qarşılıqlı şəkildə bir-birini tamamlayır və bunun nəticəsi olaraq danışan və dinləyən arasında ünsiyyət baş tutur.

Ünsiyyətin baş verməsi üçün nominasiya (adlandırma) mühüm rol oynayır. Q.V.Kolşanskiy dildə nominasiyanın rolunu belə xarakterizə edir. Nominasiya obyektiv reallığın əks olunmasında söz, söz birləşməsi və cümlələr arasındakı qarşılıqlı əlaqələri öyrənir [8, s.145].

Qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, bütövlükdə nominasiya hadisəsi dilin müxtəlif sahələrini əhatə edir. Sözün geniş mənasında nominasiya dedikdə insan şüuru vasitəsilə müxtəlif dil vahidləri ilə öz ifadəsini tapan obyektiv reallığın dərk edilməsi nəzərdə tutulur. Obyektiv reallıq dedikdə ilk növbədə şəxs, əşya, hərəkət, keyfiyyət, həmçinin hadisələr arasında mövcud olan əlaqələr nəzərdə tutulur. Nominasiya əsasən onomasioloji aspektdə yerinə yetirilir, yəni nominativ yanaşmada əşya və hadisələrin necə və hansı dil vahidləri ilə adlandırılması ön plana çəkilir.

V.Q.Qak nominasiya hadisəsinin necə reallaşdığını aşağıdakı kimi göstərir. Nitq aktında subyekt (danışan) hər hansı bir əşyanı, hadisəni özü üçün yox, həmsöhbəti üçün adlandırır. Beləliklə, nitq prosesində sosial faktor özünü göstərir. Həmsöhbətlər arasında məqsəddən asılı olaraq informasiya mübadiləsi baş verir. Bunun nəticəsi olaraq müəyyən nitq situasiyasında danışan və dinləyən faktoru qaçılmaz olur. Danışan dinləyənin məlumatına əsaslanaraq bu və ya digər əşyanı adlandırır. Bu zaman danışan həmin nitq situasiyasına müvafiq olaraq müxtəlif dil vahidlərindən istifadə edir [4, s.241]. Məsələn, belə bir situasiyanı təsəvvür edək. Danışan dinləyənin nəzərinə çatdırmaq istəyir ki, Onların həyətində bir alma ağacı var. Bu zaman danışan ekzistensional cümlə işlətmək məcburiyyətində qalır. Ona görə ki, burada danışan dinləyənin nəzərinə onların həyətində hər hansı bir ağacın mövcud olması məlumatını çatdırır. Bu cümlə modeli Azərbaycan dilində ekzistensional cümlələrə xas olan formadır. Həmin cümlənin ekzistensional cümlə kimi ingilis dilində də qarşılığı yalnız bir modeldə özünü göstərir: There is an apple-tree in our yard. Burada qeyri-müəyyən artikli müəyyən artiklla dəyişmiş olsaq, tamamilə cümlənin kommunikativ funksiyası dəyişmiş olar. Deməli, nominasiya aktının əsas komponentləri belədir: adlandıran subyekt (nominator), adlanan (nominant), adlanan obyekt (nominat), dinləyən (və ünsiyyət şəraiti).

Nominasiya hadisəsi hər şeydən əvvəl bilavasitə əşyanın adlandırılması ilə bağlı olduğu üçün nominasiyanın tipologiyasına nəzər salmaq yerinə düşərdi. Dilçilik ədəbiyyatında nominasiyanın səkkiz aspekti göstərilir [4, s.242]. Tədqiqatımızla müəyyən qədər bağlı olduğu üçün qısaca olaraq onların hər biri üzərində dayanmaq istərdik.

Nominasiyanın ierarxiyası. Nominasiyanın ierarxiyasından danışarkən əsasən iki nominasiyanın iki variantını göstərmək olar: a) birbaşa (bilavasitə) nominasiya; b) bilvasitə nominasiya. Bu yanaşmada dil vahidlərinin birinci və ikinci dərəcələri funksiyaları nəzərdə tutulur. Birinci dərəcəli funksiyada bu və ya digər dil vahidi öz əsas mənasında işlənir (Bu heyvan tülküdür). İkinci dərəcəli funksiyada isə söz ilkin mənasından uzaqlaşaraq metaforik məna kəsb edir (Bu adam əsl tülküdür).

Nominasiyanın funksiyası. Nominasiyanın hansı məqsədlə işlədilməsini müəyyənləşdirmək olduqca vacibdir. Bu baxımdan bir qayda olaraq dil və nitq nominasiyaları bir-birinə qarşı qoyulur. Dil nominasiyası virtual şəkildə mövcuddur. Dil nominasiyası nitq aktında müxtəlif situasiyalarda aktual nominasiyasının formalaşması üçün istifadə edilir. Dil sistemində insan şüurunda mövcud olan bu və ya digər əşyanın, hadisənin, əlamətin mahiyyətini əks etdirən siqnifikat özünü göstərir. Başqa sözlə desək, siqnifikat hər hansı bir məfhumun ümumiləşmiş mənası kimsi çıxış edir. Aktuallaşan nitqin əsas adlandırma obyekti isə real aləmdə mövcud olan əşya, hadisə, əlamət, hərəkət və s. bu kimi vahidlərin konkret göstəriciləri olan denotatdır. İstənilən nitq hissəsi virtuallıqdan aktuallığa keçdikdə müvafiq aktualizatorlardan istifadə edilir. Şübhəsiz, bizi burada mətnin əsas formal vahidlərindən biri kimi çıxış edən artikllar maraqlandırır. Dilçilikdə artıq belə bir fikir formalaşmışdır ki, artikl mövcud olan dillərdə artikl ismi aktuallaşdıran əsas aktualizatorlardan biri kimi çıxış edir [3, s.93]

1. I like to read a book. - Mən kitab oxumağı xoşlayıram.
2. I like to read the book. - Mən kitabı oxumağı xoşlayıram.
3. I read a book last month. - Keçən ay mən bir kitab oxudum.

Birinci cümlədə a book isminin siqnifikativ və denotativ mənaları sanki üst-üstə düşür. Hər iki halda a book ismi ümumi-lüğəvi mənada işlənmmişdir. İkinci cümlədə the book isminin işlənməsi onu göstərir ki, haqqında danışılan kitab həm

19 Azərbaycan Dillər Universiteti . mamedova-shalala@mail.ru

danışana, həm də dinləyənə məlumdur. Üçüncü cümlədə qeyri-müəyyən artikl ona görə işlənir ki, haqqında söhbət gedən kitab danışan üçün müəyyən, dinləyən üçün isə qeyri-müəyyəndir, yəni onun oxunulan kitab haqqında heç bir təsəvvürü yoxdur.

Nominasiyanın obyekti. Obyektin ifadə olunması baxımından nominasiyanın iki növü göstərilir: a) formal nominasiya; b) hadisənin (situasiyanın) nominasiyası. Formal nominasiya reallıqda mövcud olan elementləri adlandırmaq üçün işlədilir: həmin elementlər əşya, keyfiyyət, proses, əlaqə. Həmçinin təsəvvür edilə bilən istənilən real varlıqları ola bilər. Nominant kimi burada söz və ya söz birləşməsindən istifadə edilir. Bəzən dilçilikdə nominasiyanın bu növünə leksik nominasiya da deyilir [4, s.257].

Hadisənin (situasiyanın) nominasiyasında nominant kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan mikrosituasiyalar çıxış edir. Həmin mikrosituasiyaların dildə ifadəsi müxtəlif cümlə formalarında təzahür edir. Belə yanaşmada kommunikativ funksiya dilin yeganə funksiyası hesab edilə bilməz. Dil eyni zamanda dünyanın dərk edilməsində və dünya haqqında biliklərin formalaşmasında da mühüm rol oynayır. Deməli, formal nominasiyanın əsas vahidi olan söz həm dil, həm də nitq vahidi kimi müxtəlif funksiyalarda çıxış edir: yəni virtual element aktual elementə qarşı qoyulur.

Hadisənin (situasiyanın) nominasiyası da həm dil, həm də nitq vahidi kimi çıxış edə bilir. Dil sistemində cümlə müxtəlif situasiyaları mücərrəd olaraq insan şüurunda ümumi şəkildə əks etdirir. Hadisənin nominasiyası aktuallaşanda danışan və dinləyən arasında konkret olaraq informasiya mübadiləsi aparılır, hadisələr arasında baş verən qarşılıqlı əlaqələr nəzərə çatdırılır. Deməli, hadisənin nominasiyası dil vahidi kimi çıxış etdikdə cümlənin struktur-semantik modeli, yaxud sadəcə olaraq cümlə, hadisənin nominasiyası isə nitq vahidi kimi işləndikdə söyləm terminindən istifalə edilir [4, s.259].

Dilçilik ədəbiyyatında situasiya nominasiyanın əsasən üç aspekti qeyd edilir: a) tematik aspekt (nəyin haqqında danışılır); b) üslubi aspekt (nitq aktında həmsöhbətlərin həyata keçirdiyi informasiya mübadiləsini əks etdirən şərait); c) psixoloji aspekt (əminlik, şübhə, heyrətlənmə, təsəvvür və s.). V.Q.Qak qeyd edilən üç aspektə informativ aspekti də əlavə edir. O, hesab edir ki, söyləmin kommunikativ məqsədindən asılı olaraq danışanın və dinləyənin situasiya haqqında biliklərinin dərəcəsi mühüm rol oynayır: nə haqda danışılır?, kim danışır?, hansı şəraitdə danışılır?, nə məqsədlə danışılır? Müvafiq olaraq söyləmdə dörd aspekt özünü göstərir: denotativ, modal, sosial, informativ (kommunikativ). Nominasiya (söyləm) bu dörd aspekti özündə birləşdirərək cümlənin struktur modelinə qarşı qoyulur [4, s.261]. Deməli, nitq aktında hər hansı bir informasiyanın ötürülməsi olduqca mürəkkəb bir prosesdir. Qeyd edilən aspektlərin hər biri ayrı-ayrılıqda özünəməxsus cəhətlərlə xarakterizə olunur.

Subyektin nominasiyası və ünvanlanan şəxs (adresat). Obyekti danışan seçir, lakin onun seçimi yalnız arzusundan asılı deyil. Bu, eyni zamanda subyektin dinləyənə münasibətindən, nitq aktının ümumi şəraitindən, həmçinin dinləyənin həmin obyektə münasibətindən asılıdır [4, s.278]. Verilən bu açıqlamadan hiss olur ki, danışan və dinləyən arasında ünsiyyətin baş tutması və lazımi informasiyanın ötürülməsi prosesi ilk baxışda sadə görünsə də çox mürəkkəb faktorlardan asılıdır. Onları konkret olaraq belə qruplaşdırmaq olar: a) danışan və dinləyən arasında mövcud olan əlaqə; b) danışan və obyekt arasında mövcud olan əlaqə; c) dinləyənlə obyekt arasında mövcud olan əlaqə.

Burada obyekt sözü geniş mənada işlənir. Obyekt kimi sadəcə olaraq hər hansı bir əşya, konsept, hadisə mikro və makro situasiya çıxış edə bilər. Obyekt hər hansı bir ünsiyyət prosesinin mərkəzində durur. Məhz buna görə də ünsiyyətin baş tutması üçün həm danışanın, həm də dinləyənin haqqında gedən obyekt haqqında informasiyaları mühüm rol oynayır. İrəlidə görəcəyimiz kimi, danışan və dinləyənin obyekt haqqında məlumatları ya fon biliklərinə, yaxud dil kontekstinə əsaslanır. Məsələn, götürək belə bir situasiyanı. Danışan aşağıdakı ekzistensional cümləni işlədir.

There are books on the table. - Stolun üstündə kitab var.

Bu ekzistensional cümlənin işlənməsi iki situasiyanın nəticəsi ola bilər. Birincisi, həmin cümlə bu sualın cavabı kimi işlənə bilər: What is there on the table? - Stolun üstündə nə var? İkincisi, ana ilə qızı arasında gedən söhbətin nəticəsi olaraq həmin cümlə işlənir. Ana qızına yuyulmuş boşqabları stolun üstünə qoymağı deyir. Qız isə cavab olaraq stolun üstünün boş olmaması fikrini söyləyir. Hər iki halda ekzistensional cümlənin işlənməsi danışan və dinləyənin münasibətləri əsasında formalaşır.

Nominasiyanın paradiqmatik tipləri. Eyni obyekti adlandıra bilən nominasiyalar paradiqmatik cərgə əmələ gətirir. Onlar mövcud olan siqnifikativ və denotatik əlaqələr zəminində formalaşır. Siqnifikat səviyyəsində nominasiyalar məvhumlar arasında mövcud olan məntiqi əlaqələr zəminində birləşir. Denotativ səviyədə nominasiyalar eyni bir obyektin real nitq situasiyasında müxtəlif adlarla verilməsi sayəsində formalaşır. Belə adlandırmada nominasiyalar ümumi məna ətrafında birləşir. Məsələn, götürək yaşlı qadın birləşməsinin işləndiyi cümlələri.

1. Yaşlı qadın müəllimdir.
2. Bu müəllim bizim qonşudur.
3. Ucaboy qadın hər gün idman edir.

Birinci cümlədə qadının yaşından, ikinci cümlədə məşğuliyyətindən, üçüncü cümlədə isə onun xarici əlamətindən danışılır. Eyni denotat müxtəlif aspektlərdən xarakterizə olunur.

Nominasiyanın sintaqmatik tipləri. Konkret nitq aktında nominasiyaların seçilməsi yalnız paradiqmatik faktorlardan asılı deyil, onlar eyni zamanda adlandırmanın qarşılıqlı əlaqəsindən də asılıdır. Bu baxımdan nominasiyaları iki qrupa ayırmaq olar: a) nominasiyanın müstəqil forması (автономная номинация); b) qeyri-müstəqil nominasiya (неавтономная номинация).

Nominasiyanın müstəqil forması söyləmdə digər nominasiyalardan asılı deyil. Əsas məqsəd ondan ibarətdir ki, ilkin nominasiya dinləyən üçün aydın olsun, ona görə ki, ilkin nominasiya kontekstə əsaslanmır. Burada əsasən danışan şəxs və əşya haqqında verdiyi məlumat sayəsində dinləyəni həmin situasiyaya istiqamətləndirməyə çalışır. Danışan, bir adam var idi, bir dəfə, keçmiş zamanlarda, haradasa və s. bu kimi başlanğıc sözlərdən istifadə edir. Məsələn, Keçmiş zamanlarda həmin vilayətdə Muxtar adlı qəddar bir hökmdar var idi. Bir dəfə dostum İlqar mənə qorxulu bir yuxu danışdı. Təbiidir ki, bu qəbildən olan cümlələrin məlumatları müəyyən qədər dinləyən üçün aydın olmadığı üçün onlar sonrakı cümlələr vasitəsilə açıqlanır.

Nominasiyanın qeyri-müstəqil forması. Təkrar nominasiya, adından göründüyü kimi, mətndə əvvəlki adlandırmanın müxtəlif variantları şəklində təzahür edir. Təkrar nominasiya müxtəlif formalarda baş verir. Məsələn,

1. Üçüncü narı parçalayanda içindən gözəl bir qız çıxır. Çıxan kimi böyüyüb on beş yaşında bir nazənin sənəm olur (Azərbaycan nağılları, 107).

2. Bu halda şahzadəyə xəbər verirlər ki, bir at da filan qarıda var. Adam göndərir ki, getsin onu da gətirsin (Azərbaycan nağılları, 109).
3. Qutunun içində bir cüt gözəl uşaq var. Dəyirmançının övladı olmaz imiş. Sevinə-sevinə bunları evinə götürüb arvadına verir (Azərbaycan nağılları, 166).

Birinci mətndə qız sözü sənəm sözü ilə, ikincidə at sözü onu ilə, üçüncüdə isə bir cüt uşaq bunları ilə əvəz olunmuşdur. Təkrar nominasiyanın işlənməsi rabitəli nitq üçün çox səciyyəvidir.

Yuxarıda qeyd edilənləri sadalamaqla əsas məqsəd ondan ibarətdir ki, nominasiyanın müxtəlif növləri bütövlükdə sintaksisin bir bölməsi kimi müxtəlif nitq situasiyalarının ifadə olunmasında mühüm amillərdən biri kimi çıxış edir. Nominativ yanaşmada linqvistik faktorlarla bərabər ekstralinqvistik faktorlar da mühüm rol oynayır. Məhz bunun nəticəsidir ki, son dövrlərdə aparılan tədqiqatlarda praqmatik-koqnitiv yanaşmaya daha çox üstünlük verilir. Beləliklə, dilin nominativ aspekti sanki struktur aspektə qarşı qoyulur. Beləliklə, söyləmin referentini məfhum yox, lakin real nitq situasiyasında baş verən hərəkətlərin qarşılıqlı əlaqəsi təşkil edir.

Nominasiya hadisəsi bilavasitə sintaktik semantikanın daha dərindən öyrənilməsinə xidmət edir. Sintaktik semantikanın kateqoriyaları təfəkkür kateqoriyaları kimi universal xarakter daşıyır. Sintaktik semantika bütöv cümlə və mətni təşkil edən qrammatik forma və mənanı öyrənən bir sahədir. Başqa sözlə desək sintaktik semantika bütöv cümlənin və yaxud mətnin mənasını (смысл) quruluşunu öyrənir. Eyni zamanda sintaktik semantika dünya haqqında biliklərin insan şüurunda necə formalaşması hallarını da göstərir [10, s.43].

Qeyd etmək lazımdır ki, Azərbaycan dilçiliyində də cümlənin semantik strukturunun təhlilinə dair tədqiqat aparılmışdır. Bu baxımdan T.M.Hacıyevin "Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası" adlı doktorluq dissertasiyası müəyyən əhəmiyyət kəsb edir. O, göstərir ki, hər məzmun özünə müvafiq struktur tələb edir və bu məzmun çalar fərqi ilə başqa strukturda verilə bilər. Ona görə də hər bir məzmunun müvafiq strukturu olur ki, bu strukturun formalaşması fonetik, leksik və qrammatik vasitələrin birgə iştirakı ilə olur. Bu zaman konstruksiyanın semantik strukturu öyrənilir; deməli, semantik strukturun öyrənilməsində məzmunlan quruluşa yönəlmə var [1, s.11].

Ekzistensional cümlələrin formalaşması və onların mətnyaratma imkanları da bilavasitə məzmundun formaya tərəf istiqamətlənir.

Sintaktik semantikadan danışarkən istər-istəməz maddi varlıq, hadisələr və onların arasında mövcud olan əlaqələrin ifadə olunmasında daha mürəkkəb dil vahidlərindən istifadə edilir. Beləliklə, biz cümlədən həm ifadə etdiyi məna baxımından, həm də quruluşuna görə daha mürəkkəb olan mətn səviyyəsi ilə rastlaşırıq. Təsadüfi deyil ki, son tədqiqatlarda danışıq aktının üç faktordan ibarət olması fikri söylənir: danışan, dinləyən və məlumat. Eyni zamanda danışıq aktının yaranmasında kontekstin, kontaktın və kodun da mühüm rol oynaması qeyd edilir. L.M.Xanbutayevaya görə danışıq aktı müəyyən məqsədlə yaranan və dil vasitəsilə praktik və mental fəaliyyəti həyata keçirən söyləmi ifadə edir [2, s.12]. Ümumiyyətlə, hal-hazırda danışıq aktının mahiyyətinin hərtərəfli tədqiq edilməsi daha çox tədqiqatçıların diqqətini cəlb edir [9]. Məqsəddən asılı olaraq danışıq aktı cümlə və mətn-diskurs səviyyəsində ola bilər. Şübhəsiz, bizi öz tədqiqatımızda mətn səviyyəsində olan nominasiya maraqlandırır. Mətn səviyyəsində olan nominasiyalar digər nominasiyalardan əsaslı surətdə fərqlənir. Burada ayrı-ayrı hadisələrlə yanaşı, müxtəlif situasiyalar arasında baş verənlər də öz ifadəsini tapır. Mətnin nominasiyası bilavasitə mətn dilçiliyi ilə əlaqədardır, ona görə ki, bu və ya digər obyektin adlandırılması, onun başqa obyektlə (obyektlərlə) qarşılıqlı əlaqəsi geniş mətn səviyyəsində reallaşır. Bu münasibətlə informasiyanın bir cümlədən digər bir cümləyə ötürülməsi yollarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

V.Q.Qakın söylədiyi fikir müəyyən əhəmiyyət kəsb edir. O, qeyd edir ki, nominallaşmanın bir semantik sahədən digərinə keçmə yollarının araşdırılması həm idrak prosesi, həm də koqnitiv dilçiliyin öyrənilməsinə geniş imkanlar yaradır [5, s.127]. Yuxarıda qeyd edilənləri ümumiləşdirərək aşağıdakı qənaətə gəlmək olar:

Nominasiya həm dar, həm də geniş mənada başa düşülür. Dar mənada sözün nominativ mənası nəzərdə tutulur. Geniş mənada nominasiya sintaksisin bir sahəsi kimi müəyyən bir nitq situasiyasının dildə əks olunması yollarını öyrənir. Qarşıya qoyulan məqsəddən asılı olaraq nominasiyanın aşağıdakı növləri qeyd edilir: nominasiyanın ierarxiyası, funksiyası, obyekti, subyektin nominasiyası və ünvanlanan şəxs, nominasiyanın paradiqmatik, sintaqmatik tipləri. Nominasiyanın hansı formasının işlənməsi danışan və dinləyənin niyətindən, həmçinin onların fon biliklərindən asılıdır. Bütövlükdə mövcudluq bildirən cümlələr bu və ya digər şəkildə nominallaşmanın həyata keçirilməsində əsas vasitələrdən biri kimi çıxış edir.

ƏDƏBİYYAT

Hacıyev T.M. Müasir Azərbaycan dilində mürəkkəb cümlələrin struktur semantikası. Filologiya ...dokt. diss. avtoref.. Bakı, 2003.

Xanbutayeva L.M. Danışıq aktı nəzəriyyəsində sintaktik vahidlərin yeri. Bakı: Elm və təhsil, 2018.

Балли Ш. Общая лингвистика и впросы французского языка. Москва, 1955.

Гак В.Г. К типологии лингвистических номинаций. В кн.: Языковая номинация (Общие вопросы). Москва: Наука, 1977.

Гак В.Г. Пространтсво вне пространства. В кн.: Логический анализ языка: Языки пространств. Москва, 2000.

Гальперин И.Р. Языковое сознание и некоторые вопросы взаимоотношения языка и мышления // Вопросы философии. М.: Правда,1977, №4.

Звегинцев В.А. Проблема взаимоотношения языка и мышления и НТР // Вопросы философии. Москва: Правда, 1977, №4.

Колшанский Г.В. Лингво-гнесеологические основы языковой номинации. В кн.: Языковая Номинация (общие вопросы). Москва: Наука, 1977.

Кудрявцева Н.Б. Теория речевых актов как результат интеграции гуманитарных исследований // Вестник МГЛУ, вып.533. Языкознание. Грамматические исследования. Москва: Рема, ИПК МГЛУ, 2009.

Москальская О.И. Вопросы синтаксической семантики // Вопросы языкознания, 1977, №2.

Уфимцева А.А. Лингвистическая сущность и аспекты номинации. В кн.: Языковая номинация (Общие вопросы). Москва: Наука, 1977.

Açar sözlər: adlandırma, əlaqə, danışan, bilik, vahid
Key words: nomination, relation, speaker, knowledge, unit
Ключевые слова: номинация, отношение, говорящий, знание, единица

SUMMARY
Nomination and the formation of the text
Nomination is the field of syntax investigating ways of expressing different events. The investigation of outward form of nomination of objects is of great importance for learning existential sentences deeply. The main components of act nomination are: naming subject, naming, named object, listener (and the condition of communication). Act of nomination has four aspects: a) subject (about what is spoken); b) stylistic (under what conditions the information takes place); c) mental; d) information. Nomination consists of four called aspects. The relations between speaker and listener are of great importance in act of nomination. Their knowledge about the surrounding world is also necessary. Proceeding from this point of view existential sentences occupy a special place among other types of sentences. They are often used in autonomous and non-autonomous nominations, which are mainly used in forming anaphorical relations. On the whole nomination is one of the main ways of forming the text.

Номинация и формирование текста
РЕЗЮМЕ
Под номинацией понимается раздел синтаксиса, изучающий способы обозначения разных событий. Исследование внешней формы номинации предмета имеет большое значение для глубокого проникнования в суть екзис-тенциональных предложений. Основными компонентами акта номинации являются: именующий субъект, именование, именуемый объект, слушающий (и условия общения). Акт нонинации имеет четыре аспекта: а) тематический аспект (о чём речь идет); b) стилистический аспект (в каких условиях происходит обмен информации); c) психологический аспект; d) информативный аспект. Номинация объединят в себе все названные аспекты. В акте номинации важную роль играют отношения говорящего и слушающего, а также их знание об окружающем мире. С этой точки зрения екзистенциальные предложения занимают особое место среди других типов предложений. Они часто используются в автономных и неавтономных номинациях, которые являются основными единицами в формировании анафорических отношений. В целом, номинация является одним из основных способов формировании текста.

Rəyçi: f.e.d., prof. A.Y.Məmmədov